

Amerikalı biznesmen Tom Li “Əl-Qaidə” lideri Üsame Ben Ladenin öldürülməsi üçün mükafat tələb edir. Biznesmen bu tələbini hələ 2003-cü ildə Ben Ladenin gizləndiyi yeri xüsusi xidmət əməkdaşlarına söyləməsi ilə əsaslandırır.

25 milyon dollar mükafat istəyən amerikalı biznesmen Federal Təhlükəsizlik Bürosuna bu xidməti müqabilində 25 milyon dollar istəməsini tam ədalətli hesab edir.

AzNews.az xəbər verir ki, “Associated Press” amerikalı biznesmen Tom Linin hüquqlarını müdafiə edən “Loevy & Loevy” hüquq firmasının FTB-nün rəhbəri Ceyms Komiyə məktubunu yayıb.

Məktubda bildirilir ki, qiymətli daşların ticarəti ilə məşğul olan Tom Li 2003-cü ildə “Əl-Qaidə” liderinin Pişəvərdən Abbotabada getdiyi barədə məlumat alıb. Ona bu məlumatı Ben Ladeni müşayət edən Pakistan xüsusi xidmət orqanlarının əməkdaşı verib. Bundan sonra Tom Li

məlumatı FTB-na ötürüb. FTB məsələ ilə bağl hələlik açıqlama verməyib.

Qeyd edək ki, 1998-ci ildən dünyanın ən təhlükəli terrorçuları sırasında yer alan Ben Laden 2011-i ildə Abbortabadda öldürülüb. Əməliyyatda pakistanlı həkim Şakil Afridinin xüsusi rolu olub. O, ərazidə peyvəndləmə apararkən Ben Laden barədə topladığı məlumatları ABŞ kəşfiyyatına ötürüb.

Ben Laden öldürüldükdən sonra Şakil Afridi dövlətə xəyanətdə ittiham edilərək 33 il azadlıqdan məhrum edilib.